ədalət.2017.5 aprel.s.4.

# Molla Pənah Vaqifi niyə öldürdülər?

**Filoloqlara, ədəbiyyatçılara bu insan haqqında soruşdum. Onun yaradıcılığını, dahi şəxsiyyətliliyini, ictimai xadim, mütəfəkkir, müəllim, pedaqoq, astroloq, geoloq və s xüsusiyyətlərini saydılar. Molla Pənahı kim öldürdü? Sualını verəndə üzlərdə mülayimlik və səmimiyyət itdi sanki. Elə bil, bu haqqda məlumatlıdırlar ancaq danışmaq istəmirlər. Haqqında söhbət açdığımız şəxsiyyət Molla Pənah Vaqif çoxbilən təxəllüsü ilə (Vaqif) şahların, sərkərdələrin rəğbətini qazandı. Xalqın verdiyi ayama, onun haqqında miflər, əfsanələr tariximizə rəng qatır, hətta tarixdən, onun xronolgiyasından yorulan gənclərimiz üçün həm fəlsəfi, həm romantik, həm də erotik şeirlər yazan qəhrəmana çevrilə bilər. O 1717-ci ildə Qazaxada Salahlı kəndində anadan olub. Əsl adı Pənah olan dahi şairimiz mədrəsədə məktəbdarlıqla verdiyi mükəmməl dərsləri ona Molla təxəllüsünü qazandırdı, daha sonra yuxurıda qeyd etdiyim kimi çoxbilən Vaqif oldu - Molla Pənah Vaqif. Hər oxuyan Molla Pənah olmazki!**

Bu şəxsiyyəti ucaldan onun söz sənəti, yazı qabiliyyəti və ürəkləri, ağılları cəlb edən elmi-dünyagörüşü olub. İbrahim Xəlil xanın II Yekaterina ilə məktublaşmasında onun məktublarının mətnini Vaqif yazırdı və imperator tezliklə onun güclü yazı qabiliyyətini müəyyənləşdirir. 1784-cü ildə ildə Q. A. Potyomkinə yazdığı məktubunda Yekaterina qeyd edirdi ki, İbrahim xanın məktubları özünün ədəbiliyi və zərifliyi ilə İrandan və Türkiyədən gələn bütün məktubları üstələyir.

Mətbuatda çıxan yazılar da "kopi -past" təfəkkürü ilə işlənib. Kitabxanda mətbuat şöbəsində Molla Pənahla bağlı maraqlı bir yazı tapdım. - Azərbaycan qəzeti 2016-ci il, səh.9. Məhz həmin doqquzuncu səhifənin olduğu vərəq oğurlanıb. Başqa qəzetlərə müraciət elədim. Molla Pənah Vaqif haqqında müxtəlif maraqlı faktlar yer almışdı. Hadisələr öz axarlığı ilə davam edirdi. Həvəslə oxuyurdum. Elə ki, dahi şairimizin öldürülməsi səhnəsinə gəlincə yenə eyni hal əhval tutulurdu: "Onu oğlu Əli bəylə(Qasım ağa) birlikdə Məhəmməd bəy Cahangir edam elətdirdi". Səbəb isə yoxdur. Tarixdə və ədəbiyyatlarda yaxşı və pis tərəfi incələnən Ağa Məhəmməd şah Qacarınn Şuşa qalasına hücumu və qalanın 33 günlük mühasirəsi də müəmmalı mövzudur. Bəzi yazarlarımız belə bir faktı təkzib edirlər. Ağa Məhəmmdə Şah qaçar elə zəif sərkərdə ola bilməzdi axı, hücum etdiyi qalanı mütləq alıb geri qayıdardı. Amma bunu bacarmayıb. "ŞÜŞƏ" qala göydən yağan daşlara tab gətirdi və iki minlik ordu geri qayıtmağa məcbur oldu. Bu zaman səhnədə baş vəzir Molla Pənah canlanır. O təkcə şair deyildi, həm də yaxşı əsgər idi. Vəzir olmasına baxmayaraq əsgərləri ilə qalanın müdafiəsində silaha sarılmışdı. Bura qədər şairimizi sevməyə başlayırıq, ona qarşı simpatiyamız artır. Elə ki, kəskin quraqlıq dövrü başladı Qarabağ xanlığı dərin iqtisadi böhrana gömüldü. Vəziyyətdən çıxış yolu kimi oranı tərk edib dost Gürcüstana II İraklinin yanına sığınan İbrahim xəlil xanı vəziri tək qoydu. Tarixçilər Molla Pənahın bu addımını təqdirəlayiq hesab edirlər, onun idarəçisi olduğu qalanı buraxmaması qəhrəmanlıq salnaməsinin bir hissəsi idi. Amma İbrahim xəlil xanın qardaşı oğlu Məmməd Cahangir Molla Pənahın bu xəyanətini bağışlamadı və onun 1797-cu ildə oğlu ilə birlikdə edam etdirdi. Ouxucularımızı məyus etmək istəmirəm ancaq bura kimi yazılan bəzi məlumatlar yalandır. Bunu müsahibimiz jurnalist, tarixi romanlar müəllifi Mustafa Çəmənli ilə söhbətimiz zamanı aşkar etdim. Belə ki, hadisələr heç də mətbuatda yazılanlar kimi deyil. Mustafa müəllim bunları eşitcək üzündə təbəssüm yarandı. Pənahın edam olunma səbəbləri tarixçilər arasında müxtəlif cür yozulur. Danışırlar ki, qətl günü fərraşlar onları xanın yanına aparmağa gəldiklərini söyləyirlər. Yolda Molla Pənah oğlu Əli bəydən soruşur ki, xan yuxarıda otura-otura bizi aşağı niyə aparırlar? Oğlu cavabında söyləyir: "Ata, bizi bir vaxtlar sənin çoxlarını göndərdiyin yerə aparırlar".

Molla Pənah Vaqifinin öldürülməsi bir çox tarixi fərziyyələrlə, ehtimallarla xatırlanır. Şairin ikinci arvadı Qızxanımın gözəlliyi o dövrdə dillərə dastan idi. Məhəmməd bəy Cavanşir də atasından sonra hakimiyyətə gələndə Molla Pənahın gənc xanımını almaq istəyirdi. Amma məlumdur ki, şəriət buna imkan vermirdi. Digər səbəb kimi, Məhəmməd bəyin atası Mehrəli bəyin Şirvanşahlar hakimiyyəti tərəfindən öldürülməsindən sonra onun əmisi İbrahim xəlil xan qardaşının arvadı ilə evlənmək istəyir. Molla Pənahın da İbrahim xəlil xanın baş vəziri kimi elçilikdə iştirak etməsi Məhhəmməd bəylə aralarındakı nifaqı yaratmışdı. O dövrdə ümumiyyətlə qardaşın xanımı ilə evlənmək onun varisinə, var dövlətinə, namusuna başqasının sahib olmasını önləmək idi. Qadın kişinin namusu idi. Lakin, bu qəbul olunmaz idi ki, dünyasını dəyişmiş xanın övladı başqasının qapısında yaşasın. Tarixçilərin digər fərziyyəsi isə ondan ibarət idi ki, İbrahim Xəlil xanın Gürcüstana sığındığı ərəfədə Molla Pənahın gizlincə nökər vasitəsi ilə ona məktub göndərməsi gənc sərkərdə tərəfindən ifşa olunur. O, nö-



kərin hərəkətlərindən şübhələnir və onun üstünə saxladığı məktubu açığa çıxara bilir. Həmin məktubda Molal Pənah Vaqif Car-Balakən hakimi İbrahim Xəlil xandan geri qayıtmasını və yenidən Şuşa qalasına nəzarəti ələ keçirməsini istəyirdi. Bu adddımı artıq Məhəmməd Bəy Cavanşirlə onun arasında böyüyən nifaqı daha da gücləndirdi. Onun qəzəbinə tuş gəldi...

Molla Pənah Vaqif dövrünün dahi şairi, alimi kimi, o cümlədən ictimai xadimi kimi, adını tarixə yazıb. O dövrdə baş kəsməklə ad qazananlar baş kəsdiyinə görə deyil, kəsdiyi başın kimə məxsus olmasına görə tarixdə qalmışdılar. Səfəvilər hakimiyyəti dövründə Şahların Şirvanşah Fərrux ağanın başını kəsməsini xatırlatmaq yerinə düşər.

Şuşanın 33 günlük mühasirəsi əslində ciddi müzakirələrə səbəb olub. Ədəbiyyatımızda İbrahimxəlil xanın qalanı qoyub qaçması təsvir olunur. Məhşur fransız tarixçisi Jan Gelin yazdıqları və günümümüzə çatan məlumatları isə təkzib doğurur. Ağa Məhhəmməd Şah Qacarın 33 gün mühasirədən əliboş qayıtması fransızın qeydlərində yazılıb. Şuşa qalası elə asan tabe ola bilməzdi. Doğrudur Ağa Məhhəmməd Şah Qacarın məramı Şimali Azərbaycanda xanlıqlar arasındakı intirqaları, bütövləşmək istəyindən doğan mənəmçiliyi aradan qaldırmaq idi. Başlanğıcda istəyində nail ola bilmədi. Qarabağ üzərinə yürüşə hazırlaşarkən Ağa Məhəmməd şah İbrahim Xəlil xandan ona tabe olmasını və bunun rəmzi kimi oğlunu onun yanına girov göndərməsini tələb edir. İbrahim Xəlil xan buna razı olmur. 1795-ci ildə Ağa Məhəmməd şahın qoşunları Araz çayını keçərək, Şuşa istiqamətində irəliləməyə başlayırlar. Şuşalılar Vaqifin başçılığı altında müdafiə olunmaq üçün hazırlıq görürlər. Şuşanın mühasirəsi uzanır və Ağa Məhəmməd şah İbrahim Xəlil xanı qorxutmaq məqsədilə öz saray şairinə tapşırır ki, ona bir məktub yazsın. Məktub bu məzmunda olmalı idi: "Ey ağılsız, göydən başına daşlar yağarkən sən şüşənin içində mö'cüzəmi axtarırsan?" Bu parçada Şuşa qalasının adı ("şüşə sözü) oy-nadılmışdı. Şuşa Azərbaycan dilində "şüşə" demək idi və şüşə də təbii ki, daşa davam gətirə bilməzdi. Həmin beyt yazılmış kağızı oxa bərkidərək, qalaya atırlar. Qarabağ xanının birinci vəziri Vaqif buna cavab yazaraq, elə həmin yolla Qacara çatdırır. Cavabın məzmunu belə idi: "Bə'li,yaradan məni şüşəyə salıb. Ancaq bu şüşə sal daşlardan tikilmiş qalanın içində yerləşir. "

Vaqifin beyti Ağa Məhəmməd şahın qəzəbinə səbəb olur və o, top atəşlərini davam etdirmək əmrini verir. Lakin yenə heç nə alınmır. Şuşanın 33 günlük mühasirəsi qalanın igid müdafiəçilərini sarsıtmır və şah məcbur olub, mühasirəni dayandıraraq, Gürcüstana yola düşür.

Daha sonra Xanlığın mərkəzi sayılan Şuşa qalasında iqtisadi tənəzzül dövrü başlayır. Bu İran şahı üçün ələ keçməz fürsət idi. Araz çayının sahlində qoşunlarını möhkəmləndirən şah gecə İbrahim Xəlil xanın 200 atlısı tərəfindən kəşfiyyatın qurbanı olur. Ağıllı sərkərdə Ağa Məhəmməd Şah Qacar İbrahim xəlil xanın qalanı tərk etdiyini biləndə hava hücumuna keçir, oxlarla qalanı hədəfə alır. Şuşa qalasının istehkamçıları aldanır və elə zənn edirlər ki, düşmən qalaya yaxınlaşır və qapıları bağlayırlar. Qalaya dönərkən qapıların bağlı olduğunu görən İbrahim Xəlil xan məcbur olub Gücüstan istiqamətinə hərkət edir. Deməli Molla Pənah Vaqifin öz xanına xəyanət etməsi tezisi yalandır. Hər şey Məhəmməd Bəy Cavanşirin hökmranlığı altında 1797-ci ilə qədər stabil şəkildə davam edir.

Molla Pənah haqqında xüsusilə qadın gözəlliyinin heyranı olduğu deyilir. Onun erotik şeirləri qadın əndamını mükəmməl şəkildə təsvir etməsi bir növ düşünmək olar ki, oxucuların düşüncələrində məhz şair ehtirasını canlandırıb.

**Döşün açıb, əl dəyəndə yaxıya,**
**Ağ gülün bağrına peykan toxuya,**
**Bədənindən müşkü ənbər qoxuya,**
**Zülfü gərdənində bir qucaq ola.**

Bu misralarla belə nəticəyə gəlmək olar ki, bəzi mənbələrdə dahi şairimiz haqqında ölüm səbəbi ilə bağlı əsassız və iyrənc fikirlərin bu tip şeirlərlə xəfifcə sübuta yetirildiyi qəbul olunur. Axı belə deyil.

**Rüfət Soltan**